PARADIGMA, Xüsusi buraxılış, 2025, səh.49-57
https://doi.org/10.30546/30015.2025.4.026

# ZƏNGƏZUR DƏHLİZİ: AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN YANAŞMASI

**Q.Ə. Əliyev**
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: qabilalioglu1956@gmail.com

**Xülasə:** Azərbaycan Respublikasının Vətən müharibəsində möhtəşəm qələbəsindən sonra həll etməli olduğu mühüm vəzifələrdən biri ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında müntəzəm və daimi quru əlaqəsini təmin edən etibarlı nəqliyyat dəhlizi yaradılması olmuşdur. Ermənistan hakimiyyəti və havadarları daha əvvəl mövcud olmuş Mehridən keçən dəmir yolunun – Zəngəzur dəhlizinin bərpasına qəti şəkildə qarşı çıxmış, əvəzində “Sülh kəsişməsi” adlı mücərrəd layihə irəli sürmüşlər. Lakin Azərbaycanın lideri İlham Əliyevin qətiyyətli mübarizəsi nəticəsində 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan arasında imzalanmış bəyannamədə bu istiqamətdə çox mühüm anlaşmaya nail olunmuşdur. Artıq Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun yaradılması istiqamətində çalışmalara başlanılmışdır.

**Açar sözlər:** Zəngəzur dəhlizi, “Sülh kəsişməsi”, Mehridən keçən dəmir yolu xətti, Naxşıvanın blokadadan çıxarılması.

## Giriş

Azərbaycan Respublikasının Vətən müharibəsində qazandığı möhtəşəm qələbədən sonra həll etməli olduğu mühüm vəzifələrdən biri Naxçıvanı 30 il ərzində məruz qaldığı blokadadan çıxarmaq, bu eksklavla ölkəmizin əsas hissəsi ilə arasında müntəzəm və daimi quru əlaqəsini təmin edən etibarlı nəqliyyat dəhlizi yaradılması olmuşdur. Bunun üçün ölkəmizin cənub-qərb hissəsi ilə Naxçıvan arasında Ermənistanın İranla sərhədi boyunca dəmir yolu xəttinin və şose yollarının inşası vacib şərtdir. Bakıdan Muğana və sonra da Araz çayı boyunca Naxçıvanın Culfa yaşayış məntəqəsinə dəmir yolu xətti çəkilməsi layihəsi ilk dəfə XIX əsrin sonunda irəli sürülmüş, Sovet dövründə – XX yüzilin 20-40-cı illərində Ələt-Mincivan-Culfa dəmir yolu inşa edilmişdir [1, s.264, 349]. Ermənistanı və Naxçıvan bölgəsini Bakı üzərindən keçmiş İttifaqın mərkəzi ilə əlaqələndirən bu dəmir yolu xətti çəkildiyi zamandan Azərbaycan SSR Dəmir Yolu İdarəsinin tabeliyində olmuş, dəmir yolu yatağı – dəmir yolu xətti inşa edilmiş ərazi də Azərbaycanın mülkiyyəti sayılmışdır.

XX əsrin 80-ci illərinin sonunda erməni qatı millətçi qüvvələrinin azərbaycanlı əhalinin Ermənistandakı ata-baba yurdlarından zorakılıqla çıxarması zamanı bu dəmir yolunun Ermənistandan keçən hissəsində hərəkət pozuldu. Sovet İttifaqının çökməsi və müstəqil dövlətçiliyin bərpası Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsinə, erməni silahlı birliklərinin xarici havadarlarının hərtərəfli yardımı ilə Azərbaycan ərazisinin 20 faizini

işğal etməsinə gətirib çıxardı. 30 ilə qədər davam edən işğal dövründə Ermənistan rəhbərliyi nəinki həmin dəmir yolunun fəaliyyətini bərpa etdi, əksinə relsləri və stansiya avadanlıqlarını sökdürüb metallom kimi satmaqla yararsız hala saldı.

Azərbaycan Respublikası İkinci Qarabağ müharibəsində böyük qələbədən sonra Zəngəzur dəhlizinin açılması, ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında müntəzəm və daimi rabitəni təmin edən etibarlı nəqliyyat əlaqəsi yaradılmasını prioritet vəzifə kimi irəli sürdü. Lakin Ermənistan hakimiyyəti təmsilçiləri və onları dəstəkləyən xarici aktorlar Araz çayı boyunca mövcud olmuş dəmir yolunun Ermənistan ərazisindən keçən hissəsinin bərpasına qəti şəkildə qarşı çıxmışlar. Buna baxmayaraq, Azərbaycanın lideri İlham Əliyevin davamlı və qətiyyətli mübarizəsi sayəsində son aylarda bu istiqamətdə böyük uğur qazanılmış, 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan arasında imzalanmış bəyannamədə çox mühüm anlaşmaya nail olunmuşdur. Vaşinqton sammitində Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah uğrunda Tramp Marşrutu" (TRIPP) inşasına qərar verilmişdir [2].

**Müasir vəziyyət.** XX əsrin 90-cı illərinin ortalarından etibarən Azərbaycan tərəfinin Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi uğrunda mübarizəsi Ermənistan hakimiyyəti təmsilçilərinin qeyri-konstruktiv mövqeyi üzündən baş tutmadığı üçün, Naxçıvanın blokadasının aradan qaldırılması da mümkün olmadı. Yalnız 44 günlük müharibədə böyük qələbənin məntiqi sonu kimi Ermənistanın kapitulyasiyasını təsdiqləyən və Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat Naxçıvanın uzun müddətdən bəri davam edən blokadadan çıxarılacağına ümid doğurdu. Üçtərəfli bəyanatın 9-cu maddəsində yazılmışdı: "Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək" [3].

Lakin Ermənistan rəhbərliyi müxtəlif bəhanələrlə bu bəndin icrasına – Naxçıvana maneəsiz gediş-gəlişin gerçəkləşməsinə imkan vermədi. Ermənistan tərəfi, eləcə də İran Zəngəzur dəhlizini iki dövlət arasında əlaqələr üçün maneə sayıdılar. Azərbaycan tərəfi isə keçən dövr ərzində müxtəlif həll variantları təklif etməklə Naxçıvanı blokadadan xilas etməyə

çalışmışdır. Bu məsələdə qonşu dövlətlərin və böyük güclərin mövqeyi də öz milli maraqlarından və ambisiyalarından irəli gələn səbəblərdən fərqli olmuşdur.

**Azərbaycanın mövqeyi.** Ölkəmiz, digər postsovet respublikaları kimi, öz müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq birlikdə özlərinə layiqli yer tutmaq üçün regional əməkdaşlığı genişləndirməklə yanaşı, böyük dövlətlərin maraqlarını nəzərə almaqla beynəlxalq nəqliyyat və kommunikasiya layihələrində fəal iştirak etməyə başlamışdır. Xüsusən də son onilliklərdə Azərbaycanın bu istiqamətdə fəaliyyətində iqtisadi praqmatizmin prioritet qazanması, milli maraqları qətiyyətlə qorumaqla yanaşı, ağıllı realizmə doğru meylin güclənməsi müşahidə edilməkdədir. Ölkəmiz Çini Avropa ilə birləşdirən "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləməklə fəal surətdə çalışır ki, bu layihə daha cəlbedici olsun. "Orta dəhliz" üzərindəki bütün dövlətlər ümumi və ortaq maraqlar zəminində səyləri gücləndirsinlər və bu marşrut Çini, Mərkəzi Asiyanı təlatümlü Yaxın Şərqdən yan keçərək Cənubi Qafqaz üzərindən dünya bazarlarına çıxaran əsas tranzit dəhlizinə çevrilsin.

Azərbaycan Respublikası ölkənin əsas hissəsini Naxçıvanla və onun üzərindən Türkiyə ilə birləşdirən ***Zəngəzur dəhlizini*** Orta dəhlizin mühüm bir hissəsi kimi qiymətləndirmiş və postmüharibə dövründə bu istiqamətdə gərəkli addımları atmışdır və günümüzdə də bu yöndə ardıcıl səy göstərməkdədir. Azərbaycan tərəfi lap başlanğıcdan Zəngəzur dəhlizini Sovet dövründə mövcud olmuş Azərbaycanın cənub-qərb hissəsi ilə Ermənistanın Sünik vilayətindən keçməklə onun Naxçıvan eksklavı arasında dəmir yolu və avtomobil yollarının yenidən açılması kimi nəzərdə tutur və bu zaman "maneəsiz" keçidin təmin olunmasını gözləyir. Bu, Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən yük və sərnişinlər üçün gömrük rüsumlarının, sərhəd yoxlamalarının olmaması deməkdir. Belə bir tənzimləməyə nümunə kimi Rusiya Federasiyasından onun Kalininqrad vilayətinə yüklərin və sərnişinlərin maneəsiz gediş-gəlişinə imkan verən və "Rusiyadan Rusiyaya" keçid kimi tətbiq edilən *Kalininqrad modelini* göstəribdir. Ölkəmiz həmçinin həmin marşruta Rusiya Federal Təhlükəsizlik Xidməti və Sərhəd Mühafizə Xidməti əməkdaşlarının, 10 noyabr 2020-ci il üçtərəfli bəyanatında əks olunduğu kimi, "nəqliyyata nəzarəti" həyata keçirməsinə də razılığını bildirmişdir [4].

Azərbaycan II Qarabağ müharibəsi başa çatan kimi, Zəngəzur dəhlizi ətrafında ziddiyyətli bəyanatları diqqətə almadan, işğaldan azad edilmiş bölgələrimizdə geniş miqyasda nəqliyyat infrastrukturu yaradılmasına başlamışdır. Bu istiqamətdə ilk addımlardan biri 2021-ci il oktyabrın 26-da ***Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun*** inşasına başlanılması olmuşdur [5]. Horadizdən Ağbənd qəsəbəsinə – Ermənistan sərhədinə qədər 123,6 km uzunluğunda olan şose yolu qısa müddət ərzində böyük sürətlə çəkilərək istismara verilmiş,

ardınca da bu yolun davamı kimi İran ərazisindən Araz çayı boyunca Naxçıvana doğru şose yolu çəkilməsi haqqında rəsmi Tehranla müqavilələr bağlanmışdır. Azərbaycan həmçinin həmin yolun və Araz çayı üzərindən körpülərin inşasının maliyyə yükünün böyük bir hissəsini öz üzərinə götürmüşdür [6, s.103]. 2025-ci ilin sonuna kimi Araz çayı üzərindən körpünün və İran ərazisindən Ermənistanla sərhədə paralel olan 53 km uzunluğundakı mövcud yolun (yol Araz çayı boyunca çəkildiyi üçün *Araz dəhlizi* adlanır – Q.Ə.) yük axınının dəfələrlə artması gözləntilərinə uyğunlaşdırılması üçün əsaslı şəkildə yenidən qurulması, genişləndirilməsi, çətin hissələrdə tunellər inşa edilməsinin başa çatdırılması planlaşdırılır. Marşrutun sonunda isə Ordubad rayonunda Araz üzərindən daha bir körpü salınacaqdır.

Prezident İlham Əliyev 2025-ci il aprelin 28-də keçirilmiş Azərbaycan-İran biznes forumunda bu layihənin iqtisadi əhəmiyyətini bir daha vurğulayaraq qeyd etmişdir ki, Araz dəhlizi yeni bir nəqliyyat əlaqəsi, bağlantı yönümlü bir təşəbbüsdür: “ Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən bir layihədir” [7].

Bundan əlavə, ***Horadiz-Ağbənd dəmir yolunun*** inşası da sürətlə davam etdirilməkdədir. Bu dəmir yolu xətti Zəngəzur dəhlizinin əsas nəqliyyat arteriyalarından biri kimi Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməklə yanaşı, Orta Dəhlizin yeni seqmenti olaraq Şərq-Qərb-Şərq üzrə yükdaşımalar üçün əlavə imkanlar yaradacaqdır. 2025-ci ilin avqust ayına kimi ümumi uzunluğu 110,4 km olan bu dəmir yolu xəttinin layihələndirilmə işlərinin 84 faizi, tikinti-quraşdırma işlərinin isə 67 faizi yekunlaşmış, 75,6 km (yan yollarla birlikdə 87 km) uzunluğunda olan hissəsində rels döşənməsi başa çatdırılmışdır. Horadiz-Ağbənd dəmir yolunun inşası prosesində 8 stansiyanın, 40 körpünün, 26 avtomobil keçidinin, 4 tunelin, 3 qalereyanın, istinad divarlarının – ümumilikdə 553 ədəd mühəndis qurğusunun tikintisi həyata keçiriləcəkdir [8]. Bu yolun daha sonra 43 km-lik məsafədə Ermənistan ərazisindən keçməklə Naxçıvandakı mövcud dəmir yolu xətti ilə birləşdirilməsi nəzərdə tutulur. İnsanların və yüklərin maneəsiz və təhlükəsiz şəkildə daşınmasını təmin etməli olan bu yol – Zəngəzur dəhlizi Azərbaycan üçün, eləcə də Türk dünyası üçün böyük əhəmiyyətə malikdir.

**Ermənistanın mövqeyi.** 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası arasında birbaşa nəqliyyat əlaqəsinin yaradılması və Ermənistan üzərinə bu bağlantını təmin etmək öhdəliyi qoyulsa da, bu ölkənin rəhbərliyi sonrakı dörd il ərzində müxtəlif bəhanələrlə prosesi ləngitmiş, qeyri-konstruktiv mövqe sərgiləmişdir. Azərbaycan da məhz buna cavab olaraq, İran İslam Respublikası ilə alternativ marşrutlar üzrə razılaşmalar imzalamışdır.

Ermənistanın baş naziri Nikol Paşinyan 2023-cü il oktyabrın 26-da Tbilisidə keçirilən Dördüncü İpək Yolu Forumunda "Sülh kəsişməsi" adlı layihə irəli sürərək diqqəti yayındırmağa çalışmışdır. Ermənistan əvvəl "Sülh kəsişməsi" adlı layihədə Hindistan, İran, Ermənistan, Gürcüstan vasitəsilə Qara dənizə və oradanda Avropaya doğru kommunikasiya xətlərinin yaradılmasını nəzərdə tuturdu [9]. Sonra bu layihəni təkmilləşdirdi, Azərbaycan və Türkiyədən keçən yolları da əlavə etdi. Paşinyan hakimiyyəti başa düşdü ki, Azərbaycan və Türkiyənin iştirakı olmadan bölgədə hər hansı layihənin reallaşması mümkün deyil.

"Sülh kəsişməsi" adı altında təqdim edilən bu iddialı layihəyə görə, Ermənistan ərazisindən keçən və kəsişən yollar Xəzər dənizini Aralıq dənizi ilə, İran körfəzini Qara dənizlə birləşdirən ən qısa, ən səmərəli dəmir yolu, həmçinin avtomobil yolu marşrutuna çevriləcəkdir. "Sülh kəsişməsi" reallaşarsa, İrəvan Ermənistanın cənubundan təkcə Azərbaycan və Ermənistanı deyil, həm də özünün cənub rayonlarını şimal-qərb bölgələri ilə, eləcə də Azərbaycanın cənub-qərb rayonlarını Naxçıvan ilə birləşdirəcək Mehri dəmir yolunu bərpa etməyə hazır olacaqdır. Bu, gələcəkdə Ermənistanı Türkiyə ilə, Azərbaycanı Türkiyə və Gürcüstanla, həm də Azərbaycan və Ermənistanı İranla birləşdirəcək. Layihənin həyata keçirilməsi Şərqlə Qərbi Xəzər dənizindən Aralıq dənizinə, Şimal və Cənubu İran körfəzindən Qara dənizə birləşdirəcək [10].

Lakin "Sülh kəsişməsi"nin həyata keçməsi üçün Azərbaycanın razılığı vacibdir, çünki ölkəmizin iştirakı olmadan bu layihənin reallaşması mümkün deyildir. Bunu anlayan Ermənistan rəhbərliyi Azərbaycanın mövqeyini nəzərə almalı oldu və Vaşinqton sammitində Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək ***"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP)*** çəkilməsinə razılıq verdi.

Ermənistan rəsmiləri 2025-ci il avqustun 8-də Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ lideri Donald Trampın iştirakı ilə Vaşinqton Bəyannaməsinin imzalanmasından məmnundurlar. Bu sənəddə nəqliyyat əlaqələrinin açılmasına dair Ermənistanın həssaslıqla yanaşdığı əsas prinsiplər öz əksini tapmışdır: ərazi bütövlüyünün tanınması, sərhədlərin toxunulmazlığı, dövlətlərin suverenliyi və nəqliyyat dəhlizləri üzərində milli yurisdiksiya [11].

Ermənistan Xarici işlər naziri A.Mirzoyan vurğulamışdır ki, Ermənistan və Azərbaycan qarşılıqlı şəkildə dəmir yolları və digər kommunikasiyalardan istifadə barədə razılaşıblar. Bu çərçivədə "TRIPP" adlı qısa marşrut nəzərdə tutulubdur: "Ermənistan və ABŞ birgə konsorsium yaradacaq. Bu konsorsium dəmir yolu xəttinin idarəçisi olacaq, həmçinin digər şirkətləri cəlb edə

biləcək. Boru kəmərlərinin, elektrik xətlərinin və başqa infrastrukturun tikintisi və istismarı da planlara daxildir. Prinsip qarşılıqlıdır. Biz, məsələn, Naxçıvan ərazisindən istifadə etməklə Ermənistanın şimal və cənubunu birləşdirəcək dəmir yolu çəkə biləcəyik" [11].

ABŞ artıq bu məqsədlə Ermənistana 145 milyon dollar vəsait ayırmışdır. Hazırda texniki parametrlər üzrə araşdırmalar aparılır. Bu mərhələ bir neçə ay davam edəcək, sonra tikinti işləri başlayacaq. Ekspertlərin rəyinə görə, dəmir yolu inşası iki il ərzində gerçəkləşəcəkdir.

**Nəticə**

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderləri münaqişənin sülh yolu ilə həllinə, Bakı ilə İrəvan arasında nəqliyyat dəhlizinin yaradılmasına dair birgə bəyannamə imzalanması böyük tarixi hadisədir. İmzalama mərasimində Donald Tramp Zəngəzur dəhlizindən xüsusi olaraq bəhs etmiş, ABŞ-nin bununla bağlı Ermənistanla 99 illik müqavilə imzaladığını, bu müqavilənin daha 99 il uzadılacağını bildirmişdir: "Mənim üçün böyük şərəf doğuran məqam bu bəyanatda TRIPP, yəni "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun öz əksini tapmasıdır. Bu xüsusi tranzit ərazi vasitəsilə Azərbaycan Ermənistanın suverenliyinə qəti şəkildə hörmət çərçivəsində özünün Naxçıvan bölgəsinə tam çıxış əldə edəcək. Yəni, bunun nəticəsində hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyan bu ərazidə birgə əməkdaşlıq mümkün olacaq" [2].

Ermənistanın Baş naziri Nikol Paşinyan 2025-ci il avqustun 15-də ABŞ-nin "Fox News" telekanalına müsahibəsində, eləcə də sonrakı çıxışlarında qeyd etmişdir ki, imzalanmış saziş və bəyannamənin bütün tərəflər üçün, o cümlədən İran və Rusiya üçün nəzərəçarpan real faydaları vardır. İran prezidenti Məsud Pezeşkiyanın 2025-ci il avqustun 19-da İrəvana səfəri zamanı bu məsələ bir daha müzakirə edilmiş və İran tərəfi ilk dəfə bu layihəni müsbət qiymətləndirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş Nyu-Yorkda keçirilən 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına İlham Əliyevin 25 sentyabr 2025-ci il tarixli müraciətində əminliklə bildirmişdir: "Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcək TRIPP Asiyanı Avropa ilə birləşdirən, beynəlxalq yükdaşımalarının tranzit imkanlarının genişlənməsinə, region ölkələrinin rifahına və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasına xidmət edən vacib nəqliyyat əlaqəsi olacaqdır. TRIPP, eyni zamanda gələcəkdə enerji resurslarının daşınması, elektrik enerjisinin, xüsusilə də bərpaolunan enerjinin ixracı, o cümlədən fiber-optik xətlərin çəkilməsi üçün də geniş imkanlar təqdim edərək regionun beynəlxalq ticarət və rəqəmsal kommunikasiya habına çevrilməsinə təkan verə bilər" [12].

Prezident İlham Əliyev Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən iclasdakı çıxışında bu cəhəti yenidən xüsusi vurğulamışdır: "Yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli əməkdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza da fayda gətirəcək" [13].

Zəngəzur dəhlizi Azərbaycanın logistik mərkəz kimi mövqeyini möhkəmləndirir və Şərq-Qərb ticarət axınında əsas halqa kimi mühüm önəm daşıyır. Eyni zamanda, layihə Azərbaycan-Türkiyə-Mərkəzi Asiya iqtisadi əlaqələrini fiziki müstəvidə birləşdirir. Zəngəzur dəhlizi geoiqtisadi yanaşma çərçivəsində regionda postmüharibə əməkdaşlıq formatını təşviq edir. Dəhliz boyunca iqtisadi qarşılıqlı asılılıq – sabitlik modeli yaradılmasına xidmət edir və Azərbaycan-Türkiyə tandeminin Mərkəzi Asiya və Avropaya çıxışını təmin edir.

Beləliklə, günümüzdə Zəngəzur dəhlizinin həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb etməsini həm region ölkələri, həm 3 böyük qonşu dövlətlər, həm də ABŞ və Aİ qəbul edir və onun reallaşdırılması üçün əməli addımlar atırlar. Bu Azərbaycan Respublikasının apardığı məqsədyönlü ardıcıl siyasətin məntiqi nəticəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2025-ci ilin oktyabr ayında Qazaxıstanda mətbuata bəyanatında: "Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub." – sözləri [14] Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisi kimi qiymətlidir. Azərbaycan tərəfindən tranzit məhdudiyyətlərinin aradan qaldırılması regionda kommunikasiya xətlərinin açılması istiqamətində atılan cəsarətli addımdır. Bu addım Zəngəzur dəhlizinin (Tramp marşrutu) açılmasına da müsbət mənada təsir göstərəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi clddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı, "Elm", 2008, 568 s.
2. Prezident Donald Trampın bəyanatı: [Elektron resurs] / 15 oktyabr, 2025. URL: https://president.az/az/articles/view/69570
3. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı: [Elektron resurs] / 25 oktyabr, 2025. URL: https://president.az/az/articles/view/45923

4. Zəngəzur dəhlizi üçün Kalininqrad modeli: [Elektron resurs] / 25 oktyabr, 2025. URL: https://musavat.com/news/zengezur-dehlizi-ucun-kalininqrad-modeli_1050639.html - 06.03.2024
5. Azərbaycan və Türkiyə prezidentləri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizinin) təməlini qoyublar: [Elektron resurs] / 17 oktyabr, 2025. URL: https://president.az/az/articles/view/53736
6. Əliyev Q.Ə. Müasir dövrdə Cənubi Qafqazda nəqliyyat qovşaqlarının beynəlxalq əhəmiyyəti // Internatıonal South Caucasus Congress "A Crossroads Of Interests" Proceedıngs Book. September 01, Taskkent, , s.100-103
7. 2025-ci il aprelin 28-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes-forumunda prezident İlham Əliyevin çıxışı: [Elektron resurs] / 12 oktyabr, 2025. URL: https://azertag.az/xeber/bakida_azerbaycan_iran_biznes_forumu_kechirilib_ 3528615
8. Horadiz-Ağbənd dəmir yolu xəttinin layihələndirilməsinin 84 %-i tamamlanıb: [Elektron resurs] / 15 oktyabr, 2025. URL: https://internationalradio.az/az/news/90022352/horadiz-agbend-demir-yolu-xettinin-layihelendirilmesinin-84--i-tamamlanib
9. Армения получит до 236 млн. евро от ЕИБ на строительство трассы Сисиан – Каджаран: [Elektron resurs] / 12 oktyabr, 2025. URL: https://jamestown.org/program/yerevans-crossroads-for-peace-remains-elusive/
10. Yenə sülh sənədi əvəzinə "Sülh kəsişməsi" : [Elektron resurs] / 15 oktyabr, 2025. URL: https://www.musavat.com/news/yene-sulh-senedi-evezine-sulh-kesismesi_1179495.html
11. Bakının tələb etdiyi, İrəvanın razılaşmadığı məsələ... : [Elektron resurs] / 15 oktyabr, 2025. URL: https://pressklub.az/az/analitika/bakinin-teleb-etdiyi-irevanin-razilasmadigi-mesele-329296-az
12. "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına İlham Əliyevin müraciəti: [Elektron resurs] / 10 oktyabr, 2025. https://president.az/az/articles/view/70168
13. Prezident "ŞƏT plyus" formatında görüşdə: [Elektron resurs] / 12 oktyabr, 2025. URL: https://qafqazinfo.az/news/detail/prezident-tiencinde-set-plyus-formatinda-cixis-etdi-481138
14. Prezident İlham Əliyev: Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğal dövründən bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb: [Elektron resurs] / 25 oktyabr, 2025. URL: https://xalqqazeti.az/az/siyaset/243476-prezident-ilham-eliyev-azerbaycan-ermenistana

# ZANGAZUR CORRIDOR: THE APPROACHES OF AZERBAIJAN AND ARMENIA

**G.A. Aliyev**
Azerbaijan University, Baku, Azerbaijan
Baku State University, Baku, Azerbaijan

**Abstract:** Following the glorious victory of the Republic of Azerbaijan in the Patriotic War, one of the most important tasks facing it was the creation of a reliable transport corridor ensuring regular and continuous overland communication between the mainland and Nakhchivan. The Armenian authorities and their backers categorically opposed the restoration of the previously existing railway through the Mehri-Zangezur Corridor, instead putting forward an abstract project called the "Crossroads of Peace." However, as a result of the decisive efforts of Azerbaijani leader Ilham Aliyev, a crucial agreement was reached in this direction in a declaration signed between the United States, Azerbaijan, and Armenia in Washington on August 8, 2025. Work has already begun on the "Trump Route for International Peace and Prosperity," which will ensure unimpeded passage through the Zangezur Corridor and strengthen regional ties.

**Keywords:** Zangezur Corridor, "Crossroads of Peace," railway line through Mehri, lifting the blockade of Nakhchivan.